| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 15.02.2007 |
| QEYDİYYAT NÖMRƏSİ | 32 |
| ADI | Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyinin verilməsi ilə bağlı əlavə tədbirlər barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2007, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 192) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 15.02.2007 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 150.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

## *Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyinin verilməsi ilə bağlı əlavə tədbirlər barədə*[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

~~1. Kənd təsərrüfatı məhsullarının istehsalı üçün sərf olunan yanacaq və motor yağlarının dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsinin təmin edilməsi üçün dövlət büdcəsindən ayrılması nəzərdə tutulmuş vəsait hesabına istehsalçılara genetik modifikasiya olunmamış bitkilərin *(pambıq, tütün və şəkər çuğunduru istisna olmaqla)* hər hektar əkin sahəsinin və çoxillik əkmələrin becərilməsinə görə (istehsal etdiyi məhsulun növündən asılı olmayaraq) *50 manat* məbləğində yardım verilməsi müəyyən edilsin.~~[2]

~~*2. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına satılan mineral gübrələrin, pestisidlərin və ölkədə sənaye üsulu ilə istehsal edilmiş biohumusun qiymətinə 70 faiz güzəşt tətbiq edilməklə, hər hektar genetik modifikasiya olunmamış bitkilərin əkin sahəsinə və çoxillik əkmələrə görə mineral gübrələrin və biohumusun satış qiymətinə tətbiq edilən güzəştin ümumi məbləğinin yuxarı həddi 150 manat, pestisidlərin satış qiymətinə tətbiq edilən güzəştin məbləğinin yuxarı həddi 50 manat məbləğində müəyyən edilsin.*~~[3]

~~*3. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları" təsdiq edilsin (1 nömrəli əlavə)*~~[4]

4. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına ~~*mineral gübrələrin, biohumusun və pestisidlərin*~~ güzəştlə satılması Qaydaları" təsdiq edilsin (2 nömrəli əlavə).[5]

~~*5. "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli Sərəncamı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsini təmin etmək üçün 2007-ci ilin dövlət büdcəsindən ayrılması nəzərdə tutulmuş 80 milyon manat vəsaitin bölgüsü" təsdiq edilsin (3 nömrəli əlavə).*~~[6]

~~*6. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik əkininə və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin qiymətinə tətbiq edilən güzəştin məbləğinin ödənilməsinin təmin edilməsi üzrə Respublika Komissiyası yaradılsın və tərkibi təsdiq edilsin (4 nömrəli əlavə).*~~[7]

~~*6-1. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalçılarına genetik modifikasiya olunmamış bitkilərin (pambıq, tütün və şəkər çuğunduru istisna olmaqla) əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi və istehsalçılara satılmış mineral gübrələrin, biohumusun və pestisidlərin qiymətinə tətbiq edilən güzəştin dövlət büdcəsinin vəsaiti hesabına satıcılara ödənilməsi qaydası bu qərarla təsdiq edilmiş Qaydaların tələbləri nəzərə alınmaqla, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.*~~[8]

~~*7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin əsaslandırılmış sifarişi əsasında hər il dövlət büdcəsində kənd təsərrüfatı məhsullarının istehsalında və genetik modifikasiya olunmamış bitkilərin əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq, motor yağları, mineral gübrələrə, biohumusa və pestisidlərə görə yardımın verilməsi üçün ayrılması nəzərdə tutulan vəsait hesabına genetik modifikasiya olunmamış bitkilərin əkin sahəsinin becərilməsi və buğda və çəltik əkininə verilən yardımların alınmasına lazım olan blankların və ərizə formalarının çap olunmasına, istehsalçılar (pambıq və tütün istehsalçıları da daxil olmaqla) üçün plastik kartların üç ildən bir hazırlanmasına və onlara göstərilən bank xidmətinə görə müvafiq məbləğdə vəsaitin ayrılmasını təmin etsin.*~~[9]

8. "Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına alınan pestisidlərin və aqrokimyəvi maddələrin satılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 29 noyabr tarixli 221 nömrəli qərarının və bu qərarla təsdiq edilmiş Qaydaların adından və mətnindən ismin müvafiq hallarında "və aqrokimyəvi maddələrin" sözləri çıxarılsın.

9. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları"nın təsdiq edilməsi və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 mart tarixli 58 nömrəli qərarının adında və 1-ci bəndində "texnikasının" sözündən sonra "və texnoloji avadanlıqların" sözləri, 2.1-ci və 2.2-ci bəndlərdə "texnikanın" sözündən sonra "və texnoloji avadanlıqların" sözləri əlavə edilsin.

Bu qərarla təsdiq edilmiş "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları"nın adında, 1-4-cü və 6-7-ci bəndlərində ismin müvafiq hallarında "texnika" sözündən sonra ismin müvafiq hallarında "və texnoloji avadanlıqlar" sözləri əlavə edilsin, 2-ci bəndinin ikinci abzasında "5" rəqəmi "10" rəqəmi ilə əvəz edilsin, 3-cü bəndindən isə "və müəyyən edilmiş qaydada girov (ipoteka) müqaviləsi" sözləri çıxarılsın və həmin bəndə aşağıdakı redaksiyada ikinci abzas əlavə edilsin:

"İstifadəçi "Aqrolizinq" ASC-dən texnikanı lizinqə götürdükdə və ya lizinq yolu ilə satın aldıqda, onun dəyərinin 20 faizini qabaqcadan, qalan hissəsini isə bir ildən sonra tərəflərin öhdəliklərini nəzərdə tutan bağlanmış lizinq müqaviləsinin şərtlərinə əsasən ödəyir.".

10. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi~~, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti~~ və digər mərkəzi icra hakimiyyəti orqanları qəbul etdikləri normativ hüquqi aktların bu qərara uyğunlaşdırılmasını təmin etsinlər.[10]

11. "Sığortalanmasına maliyyə yardımı göstərilən kənd təsərrüfatı əmlakının və sığorta hadisələrinin növlərinin və sığorta haqqının büdcə vəsaiti hesabına ödənilən hissəsinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 mart tarixli 22 nömrəli qərarına aşağıdakı əlavə və dəyişiklik edilsin:

11.1. 1-ci bəndin ikinci abzasında "buğda" sözündən sonra ", arpa, qarğıdalı, günəbaxan - dən üçün, kartof, şəkər çuğunduru, tərəvəz (göyərti istisna olmaqla) " sözləri əlavə edilsin;

11.2. 2-ci bəndində " 25" rəqəmi "50" rəqəmi ilə əvəz edilsin.

~~12. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti bu qərarla yaradılmış Respublika Komissiyası ilə birlikdə hər il 1 sentyabr tarixinə bu qərarın icrası barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.~~

13. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 15 fevral 2007-ci il
32

-

~~Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2015-ci il 18 avqust tarixli 283 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR~~

~~**1 nömrəli əlavə**~~[11]

-

~~**Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə *buğda və çəltik əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi**~~

-

~~**QAYDALARI**~~[12]

-

~~**1. Ümumi müddəalar**~~

-

~~1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2014-cü il 16 yanvar tarixli 221 nömrəli, "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2015-ci il 3 aprel tarixli 1160 nömrəli və "Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2015-ci il 15 aprel tarixli 1175 nömrəli sərəncamlarına əsasən hazırlanmışdır və kənd təsərrüfatı məhsullarının istehsalçısı olan hüquqi və fiziki şəxslərə (bundan sonra – istehsalçı) genetik modifikasiya olunmamış bitkilərin *(pambıq, tütün və şəkər çuğunduru istisna olmaqla)* əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə *buğda və çəltik əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi şərtlərini müəyyən edir.~~[13]

~~1.2. Dövlət büdcəsinin vəsaiti hesabına istehsalçılara yardımın verilməsində əsas meyar kənd təsərrüfatı məhsullarının istehsalı üçün becərilən 1 (bir) hektar genetik modifikasiya olunmamış bitkilərin əkin sahəsi və çoxillik əkmələr götürülür. İstehsalçılara hər hektar hesabı ilə bitkilərin *(pambıq, tütün və şəkər çuğunduru istisna olmaqla)* becərilməsinə sərf etdikləri yanacaq və motor yağlarına görə 50 manat, *buğda və çəltik əkininə* görə əlavə 40 manat yardım verilir.~~

~~1.3. İstehsalçılara hər hektar hesabı ilə bitkilərin *(pambıq, tütün və şəkər çuğunduru istisna olmaqla)* becərilməsinə sərf etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardım əsas əkinlərlə yanaşı, təkrar (aralıq) əkinlərə də şamil edilir.~~[14]

~~1.4. Dövlət büdcəsinin vəsaiti hesabına yardımlar istehsalçılara mülkiyyətində, istifadəsində və ya icarəsində olan və mövcud qanunvericiliklə əkin məqsədi üçün istifadə~~

olunmasına icazə verilən kənd təsərrüfatı təyinatlı torpaq sahələrində apardıqları əkinlərə və çoxillik əkmələrə görə verilir.

1.5. Kənd təsərrüfatı məhsullarının istehsalçısı olan hüquqi şəxslərə yardımlar onların hesablaşma hesablarına, fiziki şəxslərə onların cari (xüsusi kart) hesablarına köçürülməklə verilir.

## 2. Dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsinin təşkili

2.1. İstehsalçıların siyahısının tərtib edilməsi və onlara hər hektar əkin sahəsinə və çoxillik əkmələrə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi məqsədi ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan Muxtar Respublikası Komissiyası, müvafiq rayon (şəhər) icra hakimiyyəti başçısının sərəncamı ilə kənd ərazi komissiyaları yaradılır. Kənd ərazi komissiyası sədrdən və üzvlərdən ibarət olmaqla, aşağıdakı tərkibdə təşkil edilir:

2.1.1. Komissiyanın sədri - rayon (şəhər) icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəsi;

2.1.2. Komissiyanın üzvləri - kənd bələdiyyəsinin sədri, hər kəndin istehsalçılarından bir nəfər nümayəndə, hər kəndin ağsaqqallarından 2 nəfər nümayəndə.

2.2. Rayon (şəhər) üzrə istehsalçılara dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsinin təşkili Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin *dövlət aqrar inkişaf mərkəzləri (bundan sonra - DAİM)* tərəfindən həyata keçirilir. *DAİM*:[15]

2.2.1. kənd ərazi komissiyalarından daxil olmuş məlumatlar əsasında dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların məbləğinə dair rayon üzrə icmal siyahıları tərtib edir;

2.2.2. dövlət büdcəsinin vəsaiti hesabına yardımların istehsalçılara ödənilməsinin təşkili üçün müvəkkil bankla müqavilə bağlayır və həmin müqavilənin bir nüsxəsini Respublika Komissiyasına təqdim edir;

2.2.3. kənd ərazi komissiyalarının iş rejimini və istehsalçılardan müvafiq sənədlərin qəbul edilməsi qaydalarını, şərtlərini və sənədlərin təqdimedilmə tarixini göstərməklə, rayon (şəhər) kütləvi informasiya vasitələrində məlumat dərc etdirir;

2.2.4. istehsalçıların hesablarına yardımların köçürülməsi üçün Respublika Komissiyasının qərarına əsasən yardım veriləcək istehsalçıların siyahısını, bank rekvizitlərini və onlara verilən yardımın (vəsaitin) məbləği barədə məlumatları müvəkkil bankın müəyyən etdiyi formada ona təqdim edir;

2.2.5. əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə *buğda və çəltik əkininə* görə istehsalçılara yardımların verilməsi ilə bağlı Respublika Komissiyasının qərarları barədə məlumatları kənd ərazi komissiyalarına göndərir və rayonun (şəhərin) kütləvi informasiya vasitələri ilə yayır;

2.2.6. kənd ərazi komissiyalarından daxil olan məlumatları mütəmadi təhlil edir, dəqiqləşdirilməyə ehtiyacı olan məqamları kənd ərazi komissiyaları ilə birlikdə yerində araşdırır, aşkar edilmiş qanun pozuntuları haqqında Respublika Komissiyasına məlumat verir;

2.2.7. rayon (şəhər) üzrə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilən istehsalçılara dair məlumatların uçotunu aparır və tələb olunduqda mövcud qanunvericiliyə uyğun olaraq müvafiq qurumlara təqdim edir;

2.2.8. istehsalçılara dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi prosesində yaranan problemləri 5 (beş) iş günü müddətində araşdırır və nəticəsini istehsalçıya bildirir.

2.3. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi üzrə Respublika Komissiyasının iclaslarının keçirilməsinin təşkili, *DAİM-dən* daxil olan materialların təhlili və icmal məlumatların hazırlanıb, Respublika Komissiyasına təqdim edilməsi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyində yaradılan işçi qrupu tərəfindən təmin edilir.[16]

2.4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi dövlət büdcəsindən ayrılmış vəsait hesabına ərizə və blank formalarını çap etdirir və hər il əsas əkinlər üzrə martın 15-dək, təkrar əkinlər üzrə iyulun 1-dək *DAİM* vasitəsilə kənd ərazi komissiyalarına çatdırılmasını təmin edir.

2.5. İstehsalçı dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımı almaq üçün aşağıdakı sənədləri kənd ərazi komissiyasına təqdim edir:

2.5.1. fiziki şəxslər üçün şəxsiyyət vəsiqəsinin, hüquqi şəxslər üçün VÖEN-in surəti;

2.5.2. torpaq sahəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədlərin (dövlət aktı, daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, icarə müqaviləsi və s.) surətləri;

2.5.3. torpaq sahəsinin planı və ölçüsünün surəti;

2.5.4. hüquqi şəxslərin möhürlə və onların səlahiyyətli nümayəndələrinin imzası ilə təsdiq edilmiş bank rekvizitləri.

## 3. Əkin sahəsinin becərilməsində istifadə edilən yanacaq və motor yağlarına, habelə*buğda və çəltikəkininə* görə yardımların verilməsi qaydaları və şərtləri

3.1. Yaz tarla işləri (payızlıq əkinlər də nəzərə alınmaqla) başa çatdıqdan sonra istehsalçı becərdiyi hər hektar əkin sahəsinə və çoxillik əkmələrə sərf etdiyi yanacaq və motor yağlarına, habelə *buğda və çəltik əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımı almaq üçün bu Qaydaların 1 nömrəli əlavəsinə uyğun ərizəsini, ərizəyə əlavə edilmiş cədvəl üzrə məlumatı və bu Qaydaların 2.5-ci bəndində nəzərdə tutulmuş sənədləri hər il *iyunun 1-dək* kənd ərazi komissiyasına təqdim edir.[17]

3.2. Kənd ərazi komissiyası istehsalçıdan ərizə daxil olduqdan sonra 10 (on) gün müddətində istehsalçının iştirakı ilə əkin sahələrində və çoxillik əkmələrdə aparılmış aqrotexniki işləri yerində yoxlayır və bu Qaydaların 2 nömrəli əlavəsinə uyğun 2 (iki) nüsxədən ibarət baxış aktı tərtib edir. Baxış aktının bir nüsxəsi istehsalçıya verilir.

3.3. Kənd ərazi komissiyası təqdim edilmiş sənədlərə və baxış aktlarına əsasən istehsalçıların siyahısını və onların kənd təsərrüfatı məhsullarının istehsalı üçün istifadə etdikləri əkin sahəsi barədə məlumatları bu Qaydaların 3, 4, 5 və 6 nömrəli əlavələrinə uyğun cədvəllər formasında tərtib edir və yardıma sənəd təqdim etmiş hüquqi şəxs olan istehsalçıların bank rekvizitləri ilə birlikdə baxılması üçün *iyunun 10-dək DAİM-ə* təqdim edir.[18]

3.4. *DAİM* kənd ərazi komissiyalarından daxil olan məlumatları 20 (iyirmi) gün müddətində təhlil edir, dəqiqləşdirilməyə ehtiyac olan məqamları kənd ərazi komissiyaları ilə birlikdə yerində araşdırır, onları təsdiq edir, sonra icmal siyahını bu Qaydaların 7, 8 və 9 nömrəli əlavələrinə uyğun cədvəllər formasında tərtib edir.[19]

3.5. *DAİM* bu Qaydaların 3, 4, 5, 6, 7, 8 və 9 nömrəli əlavələrindəki cədvəllərə uyğun tərtib edilmiş icmal siyahıları *iyunun 30-dək* Respublika Komissiyasına təqdim edir.[20]

3.6. Respublika Komissiyası müvafiq *DAİM-dən* daxil olmuş icmal siyahılara 15 (on beş) gün müddətində baxır və istehsalçılara becərilmiş hər hektar əkin sahəsinə və çoxillik əkmələrə, *buğda və çəltik əkininə* görə yardımların verilməsi barədə qərar qəbul edir.

3.7. Respublika Komissiyası Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, *DAİM* və müvəkkil banklarla birlikdə istehsalçılara çatacaq vəsaitin müəyyən olunmuş qaydada verilməsini *avqustun 1-dən* başlayaraq təşkil edir.[21]

## 4. Təkrar əkinlərin becərilməsində istifadə edilən yanacaq və motor yağlarına görə yardımların verilməsi qaydaları və şərtləri

4.1. İstehsalçı becərdiyi hər hektar təkrar əkin sahəsinə sərf etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımı almaq üçün bu Qaydaların 10 nömrəli əlavəsinə uyğun ərizəsini, ərizəyə əlavə edilmiş cədvəl üzrə məlumatı və bu Qaydaların 2.5-ci bəndində nəzərdə tutulmuş sənədləri hər il sentyabrın 1-dək kənd ərazi komissiyasına təqdim edir.

4.2. Kənd ərazi komissiyası istehsalçıdan ərizə daxil olduqdan sonra 10 (on) gün müddətində istehsalçının iştirakı ilə əkin sahələrində aparılmış aqrotexniki işləri yerində yoxlayır və bu Qaydaların 2 nömrəli əlavəsinə uyğun 2 (iki) nüsxədən ibarət baxış aktı tərtib edir. Baxış aktının bir nüsxəsi istehsalçıya verilir.

4.3. Kənd ərazi komissiyası təqdim edilmiş sənədlərə və baxış aktlarına əsasən istehsalçıların siyahısını və onların kənd təsərrüfatı məhsullarının istehsalı üçün istifadə etdikləri əkin sahəsi barədə məlumatları bu Qaydaların 11 və 12 nömrəli əlavələrinə uyğun cədvəl formasında tərtib edir və yardım almaq üçün sənəd təqdim etmiş hüquqi şəxs olan istehsalçıların bank rekvizitləri ilə birlikdə baxılması üçün sentyabrın 10-dək *DAİM-ə* təqdim edir.

4.4. *DAİM* kənd ərazi komissiyalarından daxil olan məlumatları 15 (on beş) gün müddətində təhlil edir, dəqiqləşdirilməyə ehtiyac olan məqamları kənd ərazi komissiyaları ilə birlikdə yerində araşdırır, onları təsdiq edir, sonra icmal siyahını bu Qaydaların 13 nömrəli əlavəsinə uyğun cədvəl formasında tərtib edir.

4.5. *DAİM* bu Qaydaların 11,12 və 13 nömrəli əlavələrindəki cədvəllərə uyğun tərtib edilmiş icmal siyahıları sentyabrın 25-dək müvafiq qaydada Respublika Komissiyasına təqdim edir.

4.6. Respublika Komissiyası müvafiq *DAİM-dən* daxil olmuş icmal siyahılara 15 (on beş) gün müddətində baxır və becərilmiş hər hektar əkin sahəsinə görə istehsalçılara yardımın verilməsi barədə qərar qəbul edir.

4.7. Respublika Komissiyası Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, *DAİM* və müvəkkil banklarla birlikdə istehsalçılara çatacaq vəsaitin müəyyən olunmuş qaydada verilməsini oktyabrın 20-dən başlayaraq təşkil edir.

## 5. Ödəniş kartlarının verilməsi qaydaları və şərtləri

5.1. Kənd təsərrüfatı məhsullarının istehsalçısı olan fiziki şəxslər üçün ödəniş kartlarının (bundan sonra – kart) 3 (üç) ildən bir hazırlanması və bu kartların dövriyyədə olduğu müddətdə onlara bank xidmətinin göstərilməsi dövlət büdcəsinin vəsaiti hesabına təmin edilir.

5.2. Müvəkkil bank kartları istehsalçılara birbaşa verir.

5.3. Yeni istehsalçılara kartlar Respublika Komissiyasının qərarı əsasında aşağıdakı qaydada verilir:

5.3.1. kənd ərazi komissiyaları yardıma sənəd təqdim etmiş və kartı olmayan istehsalçıların siyahısını bu Qaydaların 14 nömrəli əlavəsindəki cədvələ uyğun tərtib edir və *DAİM-ə* təqdim edir;

5.3.2. *DAİM* təqdim edilmiş siyahılar əsasında kənd ərazi komissiyaları üzrə bu Qaydaların 15 nömrəli əlavəsindəki cədvələ uyğun icmal siyahını tərtib edir və 14 və 15 nömrəli əlavələrdəki cədvəllərə uyğun tərtib edilmiş icmal siyahıları Respublika Komissiyasına təqdim edir;

5.3.3. Respublika Komissiyasının qərarı əsasında *DAİM* müvəkkil banka yeni kartların hazırlanması ilə bağlı sifariş verir.

5.4. Müddəti bitmiş kartların əvəzinə istehsalçılara yeni kartlar aşağıdakı qaydada verilir:

5.4.1. müvəkkil bank hər il *iyunun 10-dək* əvvəlki ilin *noyabrın 30-dan* cari ilin *noyabrın 30-dək* müddəti bitmiş və bitəcək kart sahiblərinin siyahısını *DAİM-ə* təqdim edir;[22]

5.4.2. *DAİM* yardım almaq üçün sənəd təqdim edən istehsalçıların siyahısında müddəti bitmiş və bitəcək kart sahiblərini müəyyən edir və cari ilin *iyunun 30-dək* onlara yeni kartların verilməsi ilə bağlı müvəkkil banka sifariş verir.[23]

5.5. Kartını itirmiş *və ya zədələmiş (korlamış)* kart sahiblərinə yeni kartlar aşağıdakı qaydada verilir:[24]

5.5.1. *itirilmiş və ya zədələnmiş (korlanmış)* kartın istifadəsinin qalan müddəti üzrə yeni kart verilir. Həmin kartın hazırlanması və itirildiyi ildə ona bank xidmətinin

göstərilməsi xərcləri istehsalçıların öz vəsaitləri hesabına, qalan müddətdə karta bank xidmətinin göstərilməsi xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilir;[25]

5.5.2. kartını itirmiş *və ya zədələmiş (korlamış)* kart sahibləri yeni kartın hazırlanmasına dair ərizəsini və bununla bağlı vəsaitin ödənilməsini təsdiq edən qəbzi kənd ərazi komissiyalarına təqdim edir;

5.5.3. kənd ərazi komissiyası kartını itirmiş *və ya zədələmiş (korlamış)* kart sahiblərinin siyahısını və yeni kartların hazırlanması ilə bağlı xərclərin ödənişini təsdiq edən sənədləri cari ilin *iyunun 10-dək DAİM-ə* təqdim edir;[26]

5.5.4. *DAİM* cari ilin *iyunun 20-dək* kartını itirmiş *və ya zədələmiş (korlamış)* kart sahiblərinə yeni kartların hazırlanmasına dair müvəkkil banka sifariş verir. Bu zaman *DAİM* istehsalçıların itmiş *və ya zədələnmiş (korlanmış)* kartlarının ləğv edilməsi ilə bağlı müvafiq tədbirlər görür.[27]

5.6. Yeni kartların verilməsi ilə əlaqədar istehsalçıların məlumatlandırılması üçün müvəkkil bank kartlar hazır olduqdan sonra 3 (üç) gün müddətində *DAİM-ə*, *DAİM* isə kənd ərazi komissiyalarına bildiriş göndərir (kart alacaq istehsalçıların adlı siyahısı əlavə edilməklə), kənd ərazi komissiyaları isə yeni kartların alınma vaxtı və yeri barədə istehsalçıları məlumatlandırır. Müvəkkil bank istehsalçıları yeni kartların alınma vaxtı və yeri barədə sms məlumatlandırma sistemi vasitəsilə məlumatlandıra bilər.

5.7. Vəfat etmiş, torpağını satmış və ya uzunmüddətli icarəyə vermiş, icarəyə götürdüyü torpağın icarə müddətini uzatmamış və digər səbəblərdən kənd təsərrüfatı məhsullarının istehsalını dayandırmış istehsalçıların qüvvədəolma müddəti bitməmiş kartları kənd ərazi komissiyalarının arayışı əsasında *DAİM-in* müraciətinə uyğun olaraq müvəkkil bank tərəfindən ləğv edilir.

5.8. *DAİM* müraciəti əsasında müvəkkil bank kartları ləğv etdikdən sonra bu barədə məlumatları (istehsalçıların adlı siyahısı əlavə edilməklə) 10 (on) gün müddətində *DAİM-ə* təqdim edir.[28]

## 6. Hesabat və nəzarət

6.1. Müvafiq *DAİM* istehsalçılara becərdikləri əkin sahəsi və çoxillik əkmələrə görə yardımın verilməsi üçün ayrılmış büdcə vəsaitinin istifadəsi barədə hesabatı hər il noyabrın 30-dək Respublika Komissiyasına və müvafiq rayon (şəhər) icra hakimiyyətinə təqdim edir.

6.2. İstehsalçılara becərdikləri əkin sahəsi və çoxillik əkmələrə görə dövlət büdcəsindən ayrılmış vəsait hesabına yardımın təyinatı üzrə verilməsi üzərində nəzarət qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

*6.3. DAİM-in vəzifəli şəxsləri istehsalçılara becərdikləri əkin sahəsi və çoxillik əkmələrə görə yardımın verilməsi üçün ayrılmış büdcə vəsaitinin təyinatı üzrə istifadə edilməməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.*[29]

## 7. Mübahisələr

7.1. Bu Qaydaların həyata keçirilməsi ilə bağlı yaranan mübahisələr mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada həll olunur.

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na[30]

**1 nömrəli əlavə**

____________________________ rayonunun (şəhərinin)
(rayonun (şəhərin) adı)
__________________________ kənd ərazi komissiyasına
(komissiyanın adı)
________________________________________________
(istehsalçının hüquqi ünvanı, soyadı, adı, atasının adı, hüquqi şəxsin
_______________________________________ tərəfindən
adı və səlahiyyətli nümayəndəsinin soyadı, adı, atasının adı)

**ƏRİZƏ**

Xahiş edirəm, mövcud qaydalara əsasən əkin sahəsinin becərilməsində sərf edilən yanacaq və motor yağlarına, habelə *buğda və çəltik əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların becərdiyimiz əkin sahələri və çoxillik əkmələr barədə məlumatlar əsasında hesablanıb bizə verilməsini təmin edəsiniz.

20____ il *01 iyun* tarixinə tərəfimizdən becərilmiş əkin sahələri və çoxillik əkmələr barədə məlumatlar və tələb olunan sənədlər ərizəyə əlavə olunur.[31]

__________________________
M.Y. (imza)

__________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

**Ərizəyə əlavə**

İstehsalçı ______________________________ 20____ il 0 1 iyun tarixinə mülkiyyətində, icarəsində və ya istifadəsində olan torpaq sahəsində becərdiyi kənd təsərrüfatı bitkiləri və çoxillik əkmələr barədə

**MƏLUMAT**[32]

| Sıra -si | becərilən bitkilər* | Torpaq sahəsi (ha) | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | mülkiyyətində olan torpaq sahəsi | | icarəsində və ya istifadəsində olan torpaq sahəsi | |
| | | | hektar | sənədin adı və nömrəsi | hektar | sənədin adı və nömrəsi |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1. | Ə k i n sahəsi, cəmi | - | - | - | - | - |
| 1.1. | buğda | - | - | - | - | - |
| 1.2. | çəltik | - | - | - | - | - |
| 1.3. | arpa | - | - | - | - | - |
| 1.4. | d ə n üçün qarğıdalı | - | - | - | - | - |
| 1.5. | günəbaxan | - | - | - | - | - |
| 1.6. | pambıq[33] | - | - | - | - | - |
| 1.7. | *yonca*[34] | - | - | - | - | - |
| 1.8. | kartof | - | - | - | - | - |
| 1.9. | tərəvəz | - | - | - | - | - |
| *1.9.1.* | - | - | - | - | - | - |
| *1.9.2.* | - | - | - | - | - | - |
| *1.9.3.* | - | - | - | - | - | - |
| *1.9.4.* | - | - | - | - | - | - |
| *1.9.5.* | - | - | - | - | - | - |
| 1.10. | bostan bitkiləri | - | - | - | - | - |
| *1.10.1.* | - | - | - | - | - | - |
| *1.10.2.* | - | - | - | - | - | - |
| *1.10.3.* | - | - | - | - | - | - |
| *1.10.4.* | - | - | - | - | - | - |
| 1.11. | *tütün* | - | - | - | - | - |
| 1.12. | - | - | - | - | - | - |
| 1.13. | - | - | - | - | - | - |
| 1.14. | - | - | - | - | - | - |
| 1.15. | - | - | - | - | - | - |
| 1.16. | - | - | - | - | - | - |
| 1.17. | - | - | - | - | - | - |
| 1.18. | - | - | - | - | - | - |
| 1.19. | - | - | - | - | - | - |
| 1.20. | - | - | - | - | - | - |
| 1.21. | - | - | - | - | - | - |
| 1.22. | - | - | - | - | - | - |
| 2. | Çoxillik əkmələr, cəmi | - | - | - | - | - |
| 2.1. | üzüm | - | - | - | - | - |
| 2.2. | meyvə | - | - | - | - | - |
| *2.2.1.* | - | - | - | - | - | - |
| *2.2.2.* | - | - | - | - | - | - |
| *2.2.3.* | - | - | - | - | - | - |
| *2.2.4.* | - | - | - | - | - | - |
| *2.2.5.* | - | - | - | - | - | - |
| 2.3. | çay | - | - | - | - | - |

M.Y. (imza)

(fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin adı, səlahiyyətli şəxsin vəzifəsi, soyadı, adı, atasının adı)

*Boş xanalara əkilən digər bitkilər qeyd edilir.

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na

**2 nömrəli əlavə**

**Əkin sahələrinə baxış haqqında**

**A K T**

___ ____________ 20___ il __________ rayonu _________ kəndi

Biz, aşağıdakılar:

________________________________________________________________________

kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə *buğda və çəltik əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımları almaq üçün ərizə ilə __________________________ kənd ərazi komissiyasına müraciət etmiş istehsalçı __________________________________ ərizəyə əlavə cədvəldə göstərdiyi ______ hektar əkin sahəsinə və _______ hektar çoxillik əkmələrə istehsalçının iştirakı ilə baxış keçirərkən, aşağıdakıları müəyyən etdik:

________________________________________________________________________

(bitki növləri və müvafiq əkin sahələri)

________________________________________________________________________

Akt 2 (iki) nüsxədə tərtib olundu. Onun 1 (bir) nüsxəsi istehsalçıya verilir, 1 (bir) nüsxəsi isə kənd ərazi komissiyasında saxlanılır.

Aktın doğruluğunu imzalarımızla təsdiq edirik:

__________ ________________________________________________

(imza) (soyadı, adı, atasının adı, vəzifəsi )

________________________________________________________________________

Aktın surətini aldım ______________________________________________

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na

**3 nömrəli əlavə**

**"TƏSDİQ EDİRƏM"** [35]

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin ______________________ *dövlət aqrar inkişaf mərkəzinin direktoru***

_________ _______________________

**M.Y. (imza)**

**"____"____________ 20___ il**

**20_________ il *01 iyun* tarixinə _____________________ rayonunun (şəhərinin) __________________ kənd ərazi komissiyası üzrə istehsalçıların əkin sahələri və bu əkin sahələrinə mülkiyyət, icarə və istifadə hüquqlarını təsdiq edən sənədlər barədə**

**M Ə L U M A T**

| Sıra -si | İstehsalçının soyadı, adı, atasının adı, hüquqi şəxsin adı | Cəmi becərilən əkin sahəsi (ha) | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | mülkiyyətində olan torpaq sahəsi | | icarəsində və ya istifadəsində olan torpaq sahəsi | |
| | | | hektar | sənədin adı və nömrəsi | hektar | sənədin adı və nömrəsi |
| 1. | | | | | | |
| 2. | | | | | | |
| 3. | | | | | | |
| .... | | | | | | |
| | | | | | | |
| | Cəmi | | | | | |

**Kənd ərazi komissiyasının sədri** ______________________ ______________________________

M.Y. (imza) (soyadı, atasının adı)

**Üzvləri**: ____________________ ______________________________

**(vəzifələri göstərilməklə)** (imza) (soyadı, adı, atasının adı)

________________________________ : ________________ :

________________________________ : ________________ : __________

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na

**4 nömrəli əlavə**

**"TƏSDİQ EDİRƏM"**

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin ____________________ *dövlət aqrar inkişaf mərkəzinin direktoru***

____________ ____________________

**M.Y.** **(imza)**

**"____"____________ 20___ il**

**20________ il *01 iyun* tarixinə ____________________ rayonunun (şəhərinin) __________________ kənd ərazi komissiyası üzrə istehsalçıların siyahısı, əkin sahələri və onlara ödəniləcək yardımların məbləği barədə**

**M Ə L U M A T**[36]

| Sıra-si | İstehsalçının soyadı, adı, atasının adı, hüquqi şəxsin adı | Cəmi becərilən əkin sahəsi (ha) | O cümlədən | | | | | | | | | | Veriləcək yardımların məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | buğda | | çəltik | | *pambıq*[37] | | *tütün* | | digər əkinlər | | |
| | | | əkin sahəsi (ha) | ödəniləcək məbləğ (manatla) | əkin sahəsi (ha) | ödəniləcək məbləğ (manatla) | *əkin sahəsi (ha)* | *ödəniləcək məbləğ (manatla)* | *əkin sahəsi (ha)* | *ödəniləcək məbləğ (manatla)* | əkin sahəsi (ha) | ödəniləcək məbləğ (manatla) | |
| 1. | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | |
| .... | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | Cəmi | | | | | | | | | | | | |

**Kənd ərazi komissiyasının sədri** ______________ ____________________________

M.Y. (imza) (soyadı, adı, atasının adı)

**Üzvləri:** ______________ ____________________________

**(vəzifələri göstərilməklə)** (imza) (soyadı, adı, atasının adı)

______________________________ : __________________ :

______________________________ : __________________ : __________

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na

**5 nömrəli əlavə**

**"TƏSDİQ EDİRƏM"**

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin ____________________ *dövlət aqrar inkişaf mərkəzinin direktoru***

____________ ____________________

**M.Y.** **(imza)**

**"____"____________ 20___ il**

**20________ il *01 iyun* tarixinə ____________________ rayonunun (şəhərinin) __________________ kənd ərazi komissiyası üzrə istehsalçıların siyahısı və onların digər əkinləri barədə**

**M Ə L U M A T**

| Sıra-si | İstehsalçının soyadı, adı, atasının adı, hüquqi şəxsin adı | Cəmi digər əkinlər (ha) | O cümlədən | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | arpa | dən üçün qarğıdalı | günəbaxan | pambıq[38] | *yonca*[39] | kartof | tərəvəz | bostan bitkiləri | üzüm | meyvə | çay | sair bitkilər |
| 1. | | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | |
| .... | | | | | | | | | | | | | | |
| | Cəmi | | | | | | | | | | | | | |

**Kənd ərazi komissiyasının sədri** ______________ ____________________________

M.Y. (imza) (soyadı, adı, atasının adı)

**Üzvləri:** ______________ ____________________________

**(vəzifələri göstərilməklə)** (imza) (soyadı, adı, atasının adı)

______________________________ : __________________ :

______________________________ : __________________ : __________

"TƏSDİQ EDİRƏM"
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin
____________________ *dövlət aqrar inkişaf mərkəzinin direktoru*
____________ ______________________
M.Y. (imza)
"____"____________ 20___ il

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na

**6 nömrəli əlavə**

**20________ il *01 iyun* tarixinə ____________________ rayonunun (şəhərinin) __________________ kənd ərazi komissiyası üzrə istehsalçıların siyahısı və onların sair əkinləri barədə**

**M Ə L U M A T**

| Sıra -si | İstehsalçının soyadı, adı, atasının adı, hüquqi şəxsin adı | Cəmi sair əkinlər (ha) | O cümlədən* | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 1. | | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | |
| .... | | | | | | | | | | | | | | |
| | Cəmi | | | | | | | | | | | | | |

Kənd ərazi komissiyasının sədri ______________ ____________________________
M.Y. (imza) (soyadı, adı, atasının adı)
Üzvləri: ______________ ____________________________
(vəzifələri göstərilməklə) (imza) (soyadı, adı, atasının adı)
______________________________
______________________________ : ____________________ :
______________________________ : ____________________ :

*Boş xanalara əkilən sair bitkilər qeyd edilir.

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na

**7 nömrəli əlavə**

**20___ il *01 iyun* tarixinə ________________ rayonunun (şəhərinin) kənd ərazi komissiyaları üzrə istehsalçıların sayı, əkin sahələri və onlara ödəniləcək yardımların məbləği barədə**

**M Ə L U M A T**[40]

| Sıra -si | Kənd ərazi komissiyasının adı | İstehsalçıların sayı | Cəmi becərilən əkin sahəsi (ha) | O cümlədən | | | | | | | | | | Veriləcək yardımların cəmi məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | buğda | | çəltik | | *pambıq* | | *tütün* | | digər əkinlər | | |
| | | | | əkin sahəsi (ha) | ödəniləcək məbləğ (manatla) | əkin sahəsi (ha) | ödəniləcək məbləğ (manatla) | *əkin sahəsi (ha)* | *ödəniləcək məbləğ (manatla)* | *əkin sahəsi (ha)* | *ödəniləcək məbləğ (manatla)* | əkin sahəsi (ha) | ödəniləcək məbləğ (manatla) | |
| 1. | - | - | - | - | - | - | - | - | - | - | - | | | |
| 2. | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | |
| .... | | | | | | | | | | | | | | |
| - | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | Cəmi | | | | | | | | | | | | | |

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin** ____________________
*dövlət aqrar inkişaf mərkəzinin direktoru* ______________ ____________________________
M.Y. (imza) (soyadı, adı, atasının adı)
**Mütəxəssislər:** ______________ ____________________________
(imza) (soyadı, adı, atasının adı)
______________________________ : ____________________ :
______________________________ : ____________________ :

“Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”na

**8 nömrəli əlavə**

**20___ il *01 iyun* tarixinə ____________________ rayonunun (şəhərinin) kənd ərazi komissiyaları üzrə digər əkinlər barədə**

**M Ə L U M A T**

| Sıra -si | Kənd ərazi komissiyasının adı | Cəmi digər əkinlər (ha) | O cümlədən | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | arpa | dən üçün qarğıdalı | günəbaxan | pambıq [41] | *yonca* | kartof | tərəvəz | bostan bitkiləri | üzüm | meyvə | çay | sair bitkilər |
| 1. | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 2. | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | |
| .... | | | | | | | | | | | | | | |
| | Cəmi | | | | | | | | | | | | | |

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin ________________________**
***dövlət aqrar inkişaf mərkəzinin direktoru*** _______________ ____________________________
M.Y. (imza) (soyadı, adı, atasının adı)

**Mütəxəssislər:** _______________ ____________________________
(imza) (soyadı, adı, atasının adı)

____________________ : ____________________ :
____________________ : ____________________ :

“Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”na

**9 nömrəli əlavə**

**20___ il *01 iyun* tarixinə ____________________ rayonunun (şəhərinin) kənd ərazi komissiyaları üzrə sair əkinlər barədə**

**M Ə L U M A T**

| Sıra -si | Kənd ərazi komissiyasının adı | Cəmi sair əkinlər (ha) | O cümlədən* | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | - | - | - | - | - | | | | | | | |
| 1. | | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | |
| .... | | | | | | | | | | | | | | |
| | Cəmi | | | | | | | | | | | | | |

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin ________________________**
***dövlət aqrar inkişaf mərkəzinin direktoru*** _______________ ____________________________
M.Y. (imza) (soyadı, adı, atasının adı)

**Mütəxəssislər:** _______________ ____________________________
(imza) (soyadı, adı, atasının adı)

____________________ : ____________________ :
____________________ : ____________________ :

*Boş xanalara əkilən sair bitkilər qeyd edilir.

“Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”na

**10 nömrəli əlavə**

____________________________ rayonunun (şəhərinin)
(rayonun (şəhərin) adı)

_________________________ kənd ərazi komissiyasına
(komissiyanın adı)

____________________________________________
(istehsalçının hüquqi ünvanı, soyadı, adı, atasının adı, hüquqi şəxsin

______________________________________ tərəfindən
adı və səlahiyyətli nümayəndəsinin soyadı, adı, atasının adı)

**ƏRİZƏ**

Xahiş edirəm, mövcud qaydalara əsasən təkrar əkinlərin becərilməsində sərf edilən yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların becərdiyimiz təkrar əkin sahələri barədə məlumatlar əsasında hesablanıb, bizə verilməsini təmin edəsiniz.

20_____ il 1 sentyabr tarixinə tərəfimizdən becərilmiş təkrar əkin sahələri barədə məlumatlar və tələb edilən sənədlər ərizəyə əlavə olunur.

____________________________
M.Y. (imza)

____________________________
(vəzifəsi, soyadı, adı, atasının adı)

Ərizəyə əlavə

İstehsalçı ______________________________________________ 2_____ il 1 sentyabr tarixinə mülkiyyətində, icarəsində və ya istifadəsində olan torpaq sahəsində becərdiyi aralıq kənd təsərrüfatı bitkiləri barədə

**MƏLUMAT**

| Sıra -si | Becərilən bitkilər* | Torpaq sahəsi (ha) | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | mülkiyyətində olan torpaq sahəsi | | icarəsində və ya istifadəsində olan torpaq sahəsi | |
| | | | hektar | sənədin adı və nömrəsi | hektar | sənədin adı və nömrəsi |
| 1. | | | | | | |
| 2. | | | | | | |
| 3. | | | | | | |
| 4. | | | | | | |
| 5. | | | | | | |
| 6. | | | | | | |
| 7. | | | | | | |
| 8. | | | | | | |
| 9. | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

____________________________________________________
M.Y. (imza)

__________________________________________________________________________
(fiziki şəxsin soyadı, adı, atasının adı, hüquqi şəxsin adı, səlahiyyətli şəxsinin vəzifəsi, soyadı, adı, atasının adı)

*Boş xanalara təkrar əkilən bitkilərin adı qeyd edilir.

"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na

**11 nömrəli əlavə**

**"TƏSDİQ EDİRƏM"**

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin**
___________________ ***dövlət aqrar inkişaf mərkəzinin direktoru*** ________
______________________
**M.Y. (imza)**
**"_____"____________ 20___ il**

**20____ il 1 sentyabr tarixinə ______________________ rayonunun (şəhərinin) ___________________ kənd ərazi komissiyası üzrə istehsalçıların təkrar əkin sahələri və bu əkin sahələrinə mülkiyyət, icarə və istifadə hüquqlarını təsdiq edən sənədlər barədə**

**M Ə L U M A T**

| Sıra -si | İstehsalçının soyadı, adı, atasının adı, hüquqi şəxsin adı | Cəmi becərilən təkrar əkin sahəsi (ha) | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | mülkiyyətində olan torpaq sahəsi | | icarəsində və ya istifadəsində olan torpaq sahəsi | |
| | | | hektar | sənədin adı və nömrəsi | hektar | sənədin adı və nömrəsi |
| 1. | | | | | | |
| 2. | | | | | | |
| 3. | | | | | | |
| .... | | | | | | |
| | | | | | | |
| | Cəmi | | | | | |

**Kənd ərazi komissiyasının sədri** _________________ _______________________________
M.Y. (imza) (soyadı, adı, atasının adı)

**Üzvləri:** _________________ _______________________________
**(vəzifələri göstərilməklə)** (imza) (soyadı, adı, atasının adı)
________________________________

________________________________________ : ______________________ :
________________________________________ : ______________________ :

“Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”na

**12 nömrəli əlavə**

**“TƏSDİQ EDİRƏM”**

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin**
**____________________ *dövlət aqrar inkişaf mərkəzinin direktoru* ________**
____________________
**______________ M.Y. ______________ (imza)**
**“_____”_____________ 20___ il**

**20____ il 1 sentyabr tarixinə ______________________ rayonunun (şəhərinin) ____________________ kənd ərazi komissiyası üzrə istehsalçıların siyahısı, təkrar əkin sahələri və onlara ödəniləcək yardımların məbləği barədə**
**M Ə L U M A T**

| Sıra -si | İstehsalçının soyadı, adı, atasının adı, hüquqi şəxsin adı | Cəmi becərilən təkrar əkin sahəsi (ha) | O cümlədən* | | | | | | | | | | Veriləcək yardımların cəmi məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| 1. | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | |
| .... | | | | | | | | | | | | | |
| | Cəmi | | | | | | | | | | | | |

**Kənd ərazi komissiyasının sədri** __________________ ____________________________________
M.Y. (imza) (soyadı, adı, atasının adı)
**Üzvləri:** __________________ ____________________________________
**(vəzifələri göstərilməklə)** (imza) (soyadı, adı, atasının adı)
____________________________________
____________________________________ : ______________________ :
____________________________________ : ______________________ :

*Boş xanalara təkrar əkilən bitkilərin sahəsi qeyd edilir.

“Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”na

**13 nömrəli əlavə**

**20___ il 1 sentyabr tarixinə __________________ rayonunun (şəhərinin) kənd ərazi komissiyaları üzrə istehsalçıların sayı, təkrar əkin sahələri və onlara ödəniləcək yardımların məbləği barədə**
**M Ə L U M A T**

| Sıra -si | Kənd ərazi komissiyasının adı | İstehsalçıların sayı | Cəmi becərilən təkrar əkin sahəsi (ha) | O cümlədən* | | | | | | | | | | Veriləcək yardımların cəmi məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | | | |
| 1. | | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | |
| .... | | | | | | | | | | | | | | |
| | Cəmi | | | | | | | | | | | | | |

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin** _________________________
***dövlət aqrar inkişaf mərkəzinin direktoru*** __________________ ____________________________________
M.Y. (imza) (soyadı, adı, atasının adı)
**Mütəxəssislər:** ______________ ____________________________________
(imza) (soyadı, adı, atasının adı)

*Boş xanalara təkrar əkilən bitkilərin sahəsi qeyd edilir.

“Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”na

**14 nömrəli əlavə**

**_______ ______________ 20____ il tarixinə ___________ rayonunun (şəhərinin) ______________ kənd ərazi komissiyası üzrə yeni istehsalçıların siyahısı**

| Sıra -si | İstehsalçının soyadı, adı, atasının adı | İlk dəfə müraciət etməsinin səbəbi |
|---|---|---|
| 1. | | |
| 2. | | |
| 3. | | |
| 4. | | |
| 5. | | |
| 6. | | |
| 7. | | |
| .... | | |
| | | |
| | | |
| | | |
| | | |

**Kənd ərazi komissiyasının sədri** ______________ ____________________
M.Y. (imza) (soyadı, adı, atasının adı)

**Üzvləri:**
**(vəzifələri göstərilməklə)** ________ __________________
(imza) (soyadı, adı, atasının adı)

“Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik *əkininə* görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”na

**15 nömrəli əlavə**

**_______ _________ 20____ il tarixinə ______ rayonunun (şəhərinin) ___________ kənd ərazi komissiyaları üzrə yeni istehsalçıların sayı**

| Sıra -si | Kənd ərazi komissiyasının adı | İstehsalçıların sayı |
|---|---|---|
| 1. | | |
| 2. | | |
| 3. | | |
| 4. | | |
| 5. | | |
| 6. | | |
| .... | | |
| | | |
| | | |
| | Cəmi | |

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin** _______________
***dövlət aqrar inkişaf mərkəzinin direktoru*** ________ ____________________
M.Y. (imza) (soyadı, adı, atasının adı)

**Mütəxəssislər**: _________ ________________
(imza) (soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 15 fevral tarixli 32 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2 nömrəli əlavə**

**“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına *mineral gübrələrin, biohumusun və pestisidlərin* güzəştlə satılması**

## QAYDALARI [42]

### 1. ÜMUMİ MÜDDƏALAR [43]

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin “Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 oktyabr tarixli 468 nömrəli Sərəncamına əlavə edilməsi barədə” 2005-ci il 22 sentyabr tarixli 1019 nömrəli və “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli sərəncamlarına əsasən hazırlanmışdır və “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər (bundan sonra - satıcı) tərəfindən *mineral gübrələrin*, biohumusun *və* pestisidlər*in kənd təsərrüfatı məhsulları istehsalçılarına* (bundan sonra - istehsalçı) güzəştli qiymətlərlə satılmasını tənzimləyir və şərtlərini müəyyən edir. [44]

*1.2. İstehsalçılara mineral gübrələrin*, biohumusun və pestisidlərin *güzəştlə satılması üçün əsas meyar onların mülkiyyətində, icarəsində və ya istifadəsində olan,* gübrə*, biohumus* və pestisidlər *veriləcək genetik modifikasiya olunmamış bitkilərin və çoxillik əkmələrin becərildiyi 1 (bir) hektar torpaq sahəsi götürülür. Satıcı tərəfindən istehsalçılara satılan mineral gübrələrin*, biohumusun və pestisidlərin *qiymətinə dövlət büdcəsinin vəsaiti hesabına 70 faiz həcmində güzəşt tətbiq olunur və bu güzəştin məbləğinin yuxarı həddi hər hektara görə* mineral gübrələr üçün *150 manat*, pestisidlər üçün *50 manat müəyyən edilir.* [45]

1.3. Dövlət büdcəsinin vəsaiti hesabına alınan mineral gübrələr, biohumus *və* pestisidlər “Aqrolizinq” ASC tərəfindən istehsalçıya satılanadək qanunvericilikdə nəzərdə tutulmuş qaydada sığortalanır. [46]

*1.4. Mineral gübrələrin*, biohumusun və pestisidlərin *satış qiymətinə bu qaydaların 1.2-ci bəndində nəzərdə tutulmuş güzəşt istehsalçıların mülkiyyətində, icarəsində və ya istifadəsində olan və mövcud qanunvericiliklə əkin məqsədi üçün istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələrində aparılan təkrar (aralıq) əkinlərə də şamil edilir.*

*1.5. Mineral gübrələrin,* biohumusun və pestisidlərin *istehsalçılara güzəştli qiymətlərlə satışının bu qaydalarla müəyyən edilmiş şərtlərə uyğun olaraq tənzimlənməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 fevral tarixli 32 nömrəli qərarı ilə yaradılmış Respublika Komissiyası və "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik* əkininə *görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na* əsasən yaradılmış *kənd ərazi komissiyaları və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin dövlət aqrar inkişaf mərkəzləri (bundan sonra - DAİM) tərəfindən həyata keçirilir.*[47]

*1.6. Respublika Komissiyasının iclaslarının keçirilməsinin təşkili, DAİM-dən və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanındaAqrar Xidmətlər Agentliyindən daxil olan materialların təhlili və icmal məlumatların hazırlanıb Respublika Komissiyasına təqdim edilməsi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyində yaradılan işçi qrupu tərəfindən təmin edilir.*[48]

-

**2. MİNERAL GÜBRƏLƏRİN**, BİOHUMUSUN ***VƏ*** PESTİSİDLƏR***İN*** **GÜZƏŞTLƏ SATILMASI QAYDASI VƏ ŞƏRTLƏRİ**

-

*2.1. İstehsalçı mineral gübrələri,* biohumusu və pestisidləri *güzəştli qiymətlərlə satıcıdan əldə etmək məqsədi ilə alınacaq mineral gübrələrin,* biohumusun və pestisidlərin *növünü və çəkisini göstərməklə, bu qaydaların 1 nömrəli əlavəsindəki formaya uyğun ərizə ilə satıcıya müraciət etməlidir.*[49]

2.2. Mineral gübrələrin, biohumusun və pestisidlərin güzəştli qiymətlərlə əldə olunması üçün istehsalçı mülkiyyətində, icarəsində və ya istifadəsində əkin sahəsinin olmasını təsdiqləyən sənədlərin surətini və *bu qaydaların 2 nömrəli əlavəsinə uyğun tərtib olunmuş və yerli kənd ərazi komissiyası tərəfindən təsdiq edilmiş cədvəli* ərizəyə əlavə etməlidir.[50]

2.3. İstehsalçının ərizəsi və ona əlavə olunmuş sənədlər satıcı tərəfindən xüsusi kitabda qeydə alınmaqla qəbul edilir, çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda, mineral gübrələrin, biohumusun *və* pestisidlər*in* istehsalçıya 70 faiz güzəştli qiymətlə satılması təmin edilir.[51]

2.4. Satıcı bu Qaydalarda göstərilən əsaslarla mineral gübrələrin, biohumusun *və* pestisidlər*in* 70 faiz güzəştli qiymətlə satılmasından imtina etdiyi halda, *istehsalçıya* imtinanın səbəblərini göstərməklə yazılı məlumat verir.[52]

2.5. İstehsalçı alınacaq mineral gübrələrin, biohumusun *və* pestisidlər*in* güzəştli qiymətlərlə müəyyən olunmuş dəyərini qabaqcadan ödəməklə, onları satıcıdan bilavasitə əldə edir. Bu zaman *istehsalçı* ilə satıcı arasında qanunvericiliyə müvafiq olaraq alğı-satqı əməliyyatı həyata keçirilir.

2.6. Satıcı mineral gübrələrin, biohumusun *və* pestisidlər*in* alğı-satqısını təsdiqləyən sənədləri, satılan mineral gübrələrin, biohumusun *və* pestisidlər*in* miqdarını və dəyərini göstərməklə, istehsalçılar (alıcı) üzrə icmal siyahını tərtib edərək, üç nüsxədən ibarət hər ayın 30-dək *müvafiq DAİM* təqdim edir. *DAİM* təqdim edilmiş sənədlərə *10 (on)* iş günü müddətində baxır və icmal siyahını təsdiq edərək, bir nüsxəsini Respublika Komissiyasına *(Naxçıvan Muxtar Respublikası Komissiyasına)* təqdim edir, ikinci nüsxəsini isə satıcıya qaytarır (3 nömrəli əlavə)[53]

*2.7. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanındaAqrar Xidmətlər Agentliyi hər ayın nəticəsinə görə hər bir satıcının idxal etdiyi mineral gübrənin və pestisidin növünə, həcminə və idxal qiymətlərinə (invoys üzrə) dair məlumatları növbəti ayın əvvəlindən 5 (beş) iş günündən gec olmayaraq, Respublika Komissiyasına təqdim edir. Bu məlumatlara hər bir satıcıya dair (VÖEN-i, lisenziya nömrəsi, bank rekvizitləri, telefon və faks nömrələri və ya elektron poçt ünvanı, hüquqi şəxslər üçün - adı, hüquqi və faktiki ünvanı, fiziki şəxslər üçün - adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumatlar (seriyası, nömrəsi, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı), faktiki ünvanı) məlumatlar əlavə olunmalıdır.*[54]

*2.7-1. Bu qaydalarda göstərilən şərtlərlə biohumusun satışını həyata keçirən hüquqi və fiziki şəxslər onlar haqqında məlumat bazasının formalaşdırılması məqsədi ilə maddi-texniki bazası, VÖEN-i, bank rekvizitləri, telefon və faks nömrələri və ya elektron poçt ünvanı, hüquqi şəxslər üçün - adı, hüquqi və faktiki ünvanları, fiziki şəxslər üçün - adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumatları (seriyası, nömrəsi, nə vaxt və kim tərəfindən verilmişdir), olduğu ünvan barədə məlumatları Respublika Komissiyasına təqdim etməlidirlər.*[55]

2.8. Respublika Komissiyası *DAİM və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanındaAqrar Xidmətlər Agentliyi* tərəfindən təqdim olunmuş sənədlərə *10 (on)* iş günü müddətində baxır və qəbul etdiyi qərarla birlikdə *aidiyyəti məlumatları* Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir və bu barədə satıcılara bildiriş göndərir.[56]

2.9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi təqdim edilmiş sənədlərə 10 iş günü müddətində baxır və satılmış mineral gübrələrin, biohumusun *və* pestisidlər*in* dəyərinin 70 faizinin dövlət büdcəsi hesabına satıcılara ödənilməsini təmin edir.

*2.10. Naxçıvan Muxtar Respublikasında satılmış mineral gübrələrin,* biohumusun və pestisidlərin *dəyərinin 70 faizinin dövlət büdcəsinin vəsaiti hesabına satıcılara ödənilməsi bu qaydaların tələbləri nəzərə alınmaqla, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən qaydada həyata keçirilir.*[57]

2.11. Bu Qaydalarda göstərilən şərtlərlə mineral gübrələrin alqı-satqısı ilə məşğul olmaq istəyən digər hüquqi və fiziki şəxslər qeydə alınmaq üçün Respublika Komissiyasına və Naxçıvan Muxtar Respublikasının Komissiyasına yazılı surətdə müraciət etməlidirlər (2 nömrəli əlavə).

Respublika Komissiyası və Naxçıvan Muxtar Respublikasının Komissiyası digər hüquqi və fiziki şəxslərin müraciətlərinə 3 iş günü ərzində baxır və onlara qeydiyyata alınmaları barədə bildiriş göndərir.

Qeydiyyatdan keçməyən hüquqi və fiziki şəxslər mineral gübrələrin alğı-satqı əməliyyatlarını apardıqları zaman bu Qaydaların şərtləri onlara şamil edilmir.[58]

-

**3. HESABAT VƏ NƏZARƏT**

-

3.1. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti mineral gübrələrin, biohumusun *və* pestisidlər*in* alınması üçün dövlət büdcəsindən ayrılmış vəsaitin istifadəsi barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə iyul və yanvar aylarının 10-na qədər yarımillik və illik hesabat təqdim edir. *"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin vəzifəli şəxsləri mineral gübrələrin, biohumusun və pestisidlərin alınması üçün dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə istifadə edilməməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.*[59]

3.2. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən istehsalçılara mineral gübrələrin, biohumusun *və* pestisidlər güzəştlə satılması üzərində nəzarət mövcud qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

-

**4. MƏSULİYYƏT**

-

Bu Qaydaların tələblərini pozan şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

-

**5. MÜBAHİSƏLƏR**

-

Bu Qaydaların həyata keçirilməsi ilə bağlı yaranan mübahisələr mövcud qanunvericiliklə müəyyən edilmiş qaydada həll olunur.

-

-

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına *mineral gübrələrin, biohumusun və pestisidlərin* güzəştlə satılması Qaydaları"na

**1 nömrəli əlavə**[61]

(nümunə)

"TƏSDİQ EDİRƏM"[60]

Şamaxı Rayon İcra Hakimiyyəti başçısının Göylər kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi

____________________

(imza, möhür)

____________________

-

İsmayılov Vəzir Şahin oğlu

____________________

-

(soyadı, adı, atasının adı)

-

-

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə

____________________

(satıcının adı)

Şamaxı rayonunun Göylər kənd sakini
Məmmədov Arzu Şamil oğlu tərəfindən

____________________

(istehsalçının soyadı, adı, atasının adı)

-

**Ə R İ Z Ə**

-

Bildirirəm ki, 2006-2007-ci illərdə mənim və ailəmin mülkiyyətində və icarəmdə olan 10 hektar torpaq sahəsindəgenetik modifikasiya olunmamış payızlıq və yazlıq bitkilərin becərilməsi nəzərdə tutulubdur. Bundan başqa istifadəmdə 1,0 hektar genetik modifikasiya olunmamış üzüm və meyvə bağları vardır.[62]

Dəqiq məlumatlar və tələb olunan sənədlər (cədvələ uyğun) ərizəyə əlavə olunur.

*Xahiş edirəm ____ hektar əkin sahəsinin becərilməsi üçün mənə güzəştli qiymətlərlə _____ ton (kq) azot, ______ ton (kq) kalium, _____ ton (kq) fosfor gübrəsinin və _____ton (kq) _________adlı herbisidin satılmasını təmin edəsiniz.*[63]

-

(imza)

Məmmədov Arzu Şamil oğlu

(s.a.a.)

*"TƏSDİQ EDİRƏM"*
*_________ kənd ərazi komissiyasının sədri,*
*_________ Rayon İcra Hakimiyyəti başçısının*
*_________ kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi*

*(imza, möhür)*

*(soyadı, adı, atasının adı)*

*"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına m i n e r a l gübrələrin, biohumusun və pestisidlərin güzəştlə satılması Qaydaları"na*

***2 nömrəli əlavə***[64]

( n ü m u n ə )

**Şamaxı rayonunun Göylər kənd sakini Məmmədov Arzu Şamil oğlunun mülkiyyətində, icarəsində və ya istifadəsində olan torpaq sahəsində becərəcəyi (becərdiyi) kənd təsərrüfatı bitkiləri və çoxillik əkmələr barədə**
**M Ə L U M A T**

| Sıra -si | Becərilən bitkilərin növləri | Əkin sahəsi və çoxillik əkmələr (ha) | O c ü m l ə d ə n: | | | |
|---|---|---|---|---|---|---|
| | | | mülkiyyətində olan torpaq sahəsi | | icarəsində və ya istifadəsində olan torpaq sahəsi | |
| - | - | - | hektar | hüququna dair sənədin nömrəsi | hektar | hüququna dair sənədin nömrəsi |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1. | Əkin sahəsi, cəmi | 10,0 | 4,0 | 00000 | 6,0 | 000000 |
| - | o cümlədən bitki növləri: | - | - | - | - | - |
| - | taxıl | 8,5 | 2,5 | - | 6,0 | - |
| - | pambıq | – | - | - | – | - |
| - | qarğıdalı | 0,5 | 0,5 | - | – | - |
| - | günəbaxan | 0,5 | 0,5 | - | – | - |
| - | tütün | – | - | - | – | - |
| - | kartof | – | – | - | – | - |
| - | tərəvəz | 0,5 | 0,5 | - | – | - |
| - | bostan bitkiləri | - | - | - | – | - |
| - | şəkər çuğunduru | - | – | - | – | - |
| 2. | Çoxillik əkmələr, cəmi | 1,0 | 1,0 | 000000 | – | 000000 |
| - | o c ü m l ə d ə n: | - | - | - | - | - |
| - | üzüm | 0,5 | 0,5 | - | – | - |
| - | meyvə | 0,5 | 0,5 | - | – | - |

**Fiziki və ya hüquqi şəxsin s.a.a. _________________________(imzası, möhürü)**

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına mineral gübrələrin güzəştlə satılması Qaydaları"na

**2 nömrəli əlavə**
( n ü m u n ə )

Azərbaycan Respublikasının
kənd təsərrüfatı naziri,
Respublika Komissiyasının sədri
cənab ___________________________

(hüquqi şəxslər üçün - adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, fiziki şəxs üçün - adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı)

bank rekvizitləri, VÖEN, fəaliyyət növü

Bildirirəm ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il "____ "__________ tarixli _________nömrəli qərarı ilə təsdiq edilmiş "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına mineral gübrələrin güzəştlə satılması Qaydaları" ilə müəyyən edilmiş tələblərlə razıyam və istehsalçılara mineral gübrələrin güzəştli şərtlərlə satılmasını həyata keçirəcəyəm.

Buna görə də xahiş edirəm ki,_____________________________________________
(hüquqi şəxsin və ya fiziki şəxsin adı)

müəyyən olunmuş qaydada qeydiyyata alınmasını təmin edəsiniz.

(imza)

(s.a.a.)

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına *mineral gübrələrin, biohumusun və pestisidlərin* güzəştlə satılması Qaydaları"na

**3 nömrəli əlavə** (nümunə)[65]

"Təsdiq edirəm"
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin _____________ *dövlət aqrar inkişaf mərkəzinin direktoru*[66]

"__________"____________________200 il

"Təsdiq edirəm"
"Aqrolizinq" ASC-nin İdarə Heyətinin sədri

"_______"____________________200 il

**"Aqrolizinq" ASC tərəfindən 200 ilin __________________ ayında ______________________________________ rayonunun kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli qiymətlə satılmış ______________________________________ gübrəsi** və herbisidi **barədə**[67]

(*gübrənin (o cümlədən, biohumusun) və pestisidin adı*)

**İcmal siyahı**

| Kəndlərin adı | Gübrə *və pestisid* alan istehsalçıların soyadı və adı | İstehsalçıların becərdiyi əkin sahəsi və əoxillik əkmələr, (ha) | *** 1 ton gübrənin** *və pestisidin* **satış qiyməti, (manat)** | İstehsalçıya satılmış gübrənin *və pestisidin* miqdarı və dəyəri | | | Gübrə *və pestisid* alınmasını təsdiqləyən sənədin nömrəsi və tarixi |
|---|---|---|---|---|---|---|---|
| | | | | **tton** | cəmi dəyəri, (manat) | 50 faiz güzəştli dəyəri, (manat) | |
| Həsənli kəndi | Əli Əliyev | buğda -3 | 400 | 0,6 | 240 | 120 | 015 02.02.2008-ci il |
| - | İsa Babayev | pambıq -1 | 400 | 0,3 | 120 | 60 | 025 06.02.2008-ci il |
| kənd üzrə | cəmi | 4 | 400 | 0,9 | 360 | 180 | – |
| rayon üzrə | cəmi | 120 | 400 | 30 | 12000 | 600 | – |

______________________________ **"Aqrolizinq" ASC-nin yerli nümayəndəsi**

______________________________ (təşkilatın adı, ünvanı, satıcının soyadı və adı)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 15 fevral tarixli 32 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli əlavə**

"Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli Sərəncamı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 70 faizinin dövlət tərəfindən ödənilməsini təmin etmək üçün 2007-ci ilin dövlət büdcəsindən ayrılması nəzərdə tutulmuş 80 milyon manat vəsaitin[68]

**B Ö L G Ü S Ü**

| **Sıra -si** | - | **Ayrılan vəsait (milyon manatla)** |
|---|---|---|
| 1. | Yanacaq və motor yağlarına görə istehsalçılara yardımın verilməsinə<br>o cümlədən:<br>Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə | 56,0<br>-<br>-<br>2,4 |
| 2. | Mineral gübrələrin istehsalçılara güzəştlə satılmasına<br>o cümlədən:<br>Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə | 24,0<br>-<br>1,1 |
| - | **C ə m i** | **80,0** |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 15 fevral tarixli 32 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**4 nömrəli əlavə**

***Kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik*** əkininə ***və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan*** mineral gübrələrin, biohumusun və pestisidlərin ***qiymətinə tətbiq edilən güzəştin məbləğinin ödənilməsinin təmin edilməsi üzrə Respublika Komissiyasının***

**T Ə R K İ B İ**[69]

**Respublika Komissiyasının sədri**

| | |
|---|---|
| İlham Ərdəbil oğlu Quliyev | – Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini[70] |

**Respublika Komissiyasının üzvləri:**[71]

| | |
|---|---|
| *Elvin Veys oğlu Camalov* | *– Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Aparatının iqtisadi siyasət şöbəsi müdirinin müavini*[72] |
| *Elşən Kərim oğlu Əhmədov*[73] | *– Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının iqtisadi sahələrin maliyyəsi şöbəsinin sektor müdiri* |
| Azad Sabir oğlu Nağıyev | – Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi sədrinin müavini |
| *Gündüz Müküş oğlu Məmmədov* | *– Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının kənd təsərrüfatı statistikası şöbəsinin müdiri*[74] |
| Yaşar Zeynalabdın oğlu Məmmədov | – Azərbaycan Respublikası "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti sədrinin müavini |
| *Elmin Əlisa oğlu Rəhmanov*[75] | – Azərbaycan Respublikası "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti sədrinin Müavini |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 20 noyabr 2007-ci il tarixli **184** nömrəli Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 11, maddə 1184**)
2. 13 iyun 2008-ci il tarixli **135** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 587**)
3. 24 dekabr 2010-cu il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 12, maddə 1124**)
4. 2 avqust 2012-ci il tarixli **162** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 08, maddə 811**)
5. 16 iyul 2013-cü il tarixli **187** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 19 iyul 2013-cü il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 07, maddə 882**)
6. 18 dekabr 2013-cü il tarixli **342** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 12, maddə 1633**)
7. 14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 fevral 2014-cü il, 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 02, maddə 201**)
8. 5 iyun 2014-cü il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 iyun 2014-cü il, 121, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 736**)
9. 1 avqust 2014-cü il tarixli **270** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 5 avqust 2014-cü il, 165, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1004**) (**Bu qərar 5 (beş) il müddətində qüvvədədir**)

10. 16 yanvar 2015-ci il tarixli **8** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 1, maddə 60** )
11. 25 may 2015-ci il tarixli **201** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 675**)
12. 12 iyun 2015-ci il tarixli **223** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 06, maddə 795**)
13. 18 avqust 2015-ci il tarixli **283** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 25 avqust 2015-ci il, 183, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 968**)
14. 12 oktyabr 2015-ci il tarixli **323** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 15 oktyabr 2015-ci il, 224 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 10, maddə 1237**)
15. 17 dekabr 2015-ci il tarixli **380** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 12, maddə 1577**)
16. 13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 20 may 2016-cı il, 108 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 955**)
17. 6 iyun 2016-cı il tarixli **212** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 iyun 2016-cı il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1190)**
18. 21 dekabr 2016-cı il tarixli **521** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 dekabr 2016-cı il, 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2238)**
19. 27 mart 2017-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 mart 2017-ci il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 3, maddə 507)**
20. 2 avqust 2017-ci il tarixli **312** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 avqust 2017-ci il, 168 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1602)**
21. 11 dekabr 2017-ci il tarixli **547** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 dekabr 2017-ci il, 275, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, II kitab, maddə 2495)**
22. 17 aprel 2018-ci il tarixli **175** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 aprel 2018-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 821)**
23. 15 oktyabr 2018-ci il tarixli **446** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 17 oktyabr 2018-ci il, 233, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 10, maddə 2161)**
24. 23 may 2019-cu il tarixli **239** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 26 may 2019-cu il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 972)**
25. 25 iyun 2019-cu il tarixli **277** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 28 iyun 2019-cu il, 137 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1166)**
26. 30 dekabr 2019-cu il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 2098** )
27. 18 avqust 2020-ci il tarixli **298** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 19 avqust 2020-ci il, 163 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1115)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 18 avqust 2015-ci il tarixli **283** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 25 avqust 2015-ci il, 183, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 968**) ilə adında "**yağlarına**" sözündən sonra "**, habelə buğda və çəltik səpininə**" sözləri əlavə edilmişdir və "**yardımın**" sözü "**yardımların**" sözü ilə əvəz edilmişdir.

12 oktyabr 2015-ci il tarixli **323** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 15 oktyabr 2015-ci il, 224 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 10, maddə 1237**) ilə adına "**gübrələrin**" sözündən sonra "**və herbisidlərin**" sözləri əlavə edilmişdir.

6 iyun 2016-cı il tarixli **212** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 iyun 2016-cı il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1190**) ilə adında "**buğda və çəltik səpininə**" sözləri "**buğda, çəltik, pambıq və tütün əkininə**" sözləri ilə və "**mineral gübrələrin və herbisidlərin**" sözləri "**mineral gübrələrin, biohumusun və pestisidlərin**" sözləri ilə əvəz edilmişdir.

21 dekabr 2016-cı il tarixli **521** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 dekabr 2016-cı il, 285, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2238**) ilə adında, 3-cü, 6-cı və 6-1-ci hissələrində "**buğda, çəltik, pambıq və tütün**" sözləri "**buğda və çəltik**" sözləri ilə əvəz edilmişdir.
30 dekabr 2019-cu il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 2098** ) ilə adı yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~**"Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına** , ***habelə buğda və çəltik əkininə*** **görə dövlət büdcəsinin vəsaiti hesabına *yardımların* verilməsi Qaydaları"nın və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına *mineral gübrələrin, biohumusun və pestisidlərin* güzəştlə satılması Qaydaları"nın təsdiq edilməsi barədə**~~

[2] 16 iyul 2013-cü il tarixli **187** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 19 iyul 2013-cü il, 156** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 07, maddə 882**) ilə 1-ci, 2-ci və 6-cı hissələrə "**hər hektar**" sözlərindən əvvəl "**genetik modifikasiya olunmamış bitkilərin**" sözləri əlavə edilmişdir.

12 iyun 2015-ci il tarixli **223** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 06, maddə 795**) ilə 1-ci və 6-cı hissələrdə "**40 manat**" sözləri "**50 manat**" sözləri ilə əvəz edilmişdir.

21 dekabr 2016-cı il tarixli **521** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 23 dekabr 2016-cı il, 285**) ilə 1-ci və 6-1-ci hissələrə "**bitkilərin**" sözündən sonra "**(pambıq və tütün istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

2 avqust 2017-ci il tarixli **312** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 avqust 2017-ci il, 168 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1602**) ilə 1-ci və 6-1-ci hissələrdə "**pambıq və tütün**" sözləri "**pambıq, tütün və şəkər çuğunduru**" sözləri ilə əvəz edilmişdir.
30 dekabr 2019-cu il tarixli **518** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 12, maddə 2098** ) ilə 1-4-cü, 6-cı, 6-1-ci və 12-ci hissələr ləğv edilmişdir.

[3] 13 iyun 2008-ci il tarixli **135** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 587** ) ilə 2-ci bəndində "**26**" rəqəmi "**50**" rəqəmi ilə əvəz edilmişdir.

1 avqust 2014-cü il tarixli **270** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 5 avqust 2014-cü il, 165, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1004**) ilə 2-ci hissədə "**50 faiz**" sözləri "**70 faiz**", "**50 manata**" sözləri "**80 manata**" sözləri ilə əvəz edilmişdir və "**300 kiloqrama, ya da onun dəyərinin yuxarı həddi** " sözləri çıxarılmışdır.

18 avqust 2015-ci il tarixli **283** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 25 avqust 2015-ci il, 183, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 968**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.
əvvəlki redaksiyada deyilirdi:
~~2. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına orta hesabla 70 faiz güzəştlə satılacaq mineral gübrələrin miqdarı genetik modifikasiya olunmamış bitkilərin hər hektar əkin sahəsinə görə 300 kiloqrama, ya da onun dəyərinin yuxarı həddi 80 manata qədər müəyyən edilsin.~~

12 oktyabr 2015-ci il tarixli **323** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 15 oktyabr 2015-ci il, 224** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 10, maddə 1237**) ilə 2-ci hissəyə "**gübrələrin**" sözündən sonra "**və herbisidlərin**" sözləri, "**görə**" sözündən sonra "**mineral gübrələr üçün**" sözləri, "**manat**" sözündən sonra "**, herbisidlər üçün 10 manat** " sözləri əlavə edilmişdir.

6 iyun 2016-cı il tarixli **212** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 iyun 2016-cı il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1190**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~2. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və digər hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçılarına satılan mineral gübrələrin və herbisidlərin qiymətinə 70 faiz həcmində güzəşt tətbiq edilməklə, onun məbləğinin yuxarı həddi hər hektar genetik modifikasiya olunmamış bitkilərin əkin sahəsinə və çoxillik əkmələrə görə mineral gübrələr üçün 80 manat, herbisidlər üçün 10 manat məbləğində müəyyən edilsin.~~

17 aprel 2018-ci il tarixli **175** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 aprel 2018-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 821**) ilə 2-ci hissədə "**100 manat**" sözləri "**150 manat**" sözləri ilə və "**10 manat**" sözləri "**50 manat**" sözləri ilə əvəz edilmişdir.

[4] 18 avqust 2015-ci il tarixli **283** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 25 avqust 2015-ci il, 183, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 8, maddə 968**) ilə adında "**yağlarına**" sözündən sonra "**, habelə buğda və çəltik səpininə**" sözləri əlavə edilmişdir və "**yardımın**" sözü "**yardımların**" sözü ilə əvəz edilmişdir.
Əvvəlki redaksiyada deyilirdi:
~~3. "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardımın verilməsi Qaydaları" təsdiq edilsin (1 nömrəli əlavə).~~

6 iyun 2016-cı il tarixli **212** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 iyun 2016-cı il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1190**) ilə 3-cü hissədə "**buğda və çəltik səpininə**" sözləri "**buğda, çəltik, pambıq və tütün əkininə**" sözləri ilə əvəz edilmişdir.

[5] 12 oktyabr 2015-ci il tarixli **323** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 15 oktyabr 2015-ci il, 224** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 10, maddə 1237**) ilə 4-cü, 6-cı və 6-1-ci hissələrə "**gübrələrin**" sözündən sonra "**və herbisidlərin**" sözləri əlavə edilmişdir.

6 iyun 2016-cı il tarixli **212** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 iyun 2016-cı il, 124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1190**) ilə 4-cü hissədə "**mineral gübrələrin və herbisidlərin**" sözləri "**mineral gübrələrin, biohumusun və pestisidlərin**" sözləri ilə əvəz edilmişdir.

[6] 18 avqust 2015-ci il tarixli **283** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 25 avqust 2015-ci il, 183, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il,**

**8, maddə 968**) ilə 5-ci hissə ləğv edilmişdir.

[7] 1 avqust 2014-cü il tarixli **270** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 5 avqust 2014-cü il, 165, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 8, maddə 1004**) ilə 6-cı hissənin birinci abzasında “ **50 faizinin** ” sözləri “ **70 faizinin** ” sözləri ilə əvəz edilmişdir.

